**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞEYX QALİB YARADICILIĞINDA FÜZULİ ƏNƏNƏLƏRİ

İxtisas: 5717.01 – Türk xalqları ədəbiyyatı
5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Gülər Sabir qızı Abdullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmlər doktoru, dosent
**Salidə Şəmməd qızı Şərifova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Firuzə Abdulla qızı Ağayeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Təhminə Kamran qızı Bədəlova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Ramiz Asəf oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

Dissertasiya şurasının sədri:
AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
___________________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
___________________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
___________________ **Almas Qasım qızı Binnətova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** "Şeyx Qalib yaradıcılığında Füzuli ənənələri" mövzusu ədəbiyyatşünaslığımızın qarşısında duran mühüm məsələlərdən biridir, Azərbaycan ədəbiyyatı ilə türkdilli xalqların ədəbi əlaqələrini genişləndirmək, tədqiq etmək və onları qarşılıqlı kontekstdə öyrənmək baxımından çox əhəmiyyətlidir. Ədəbiyyatların belə qarşılıqlı şəkildə araşdırılıb öyrənilməsi bu xalqlara aid ortaq ədəbiyyatların, mədəniyyətlərin dərindən öyrənilməsinə, tədqiq edilməsinə imkan yaradır. Bu da türkdilli xalqların milli köklərinin bir-birindən qaynaqlanmasını ortaya qoyan amillər kimi dəyərlidir.

Azərbaycan və türk xalqları arasında ən qədim dövrlərdən bu günə kimi sıx tarixi-mədəni və sosial-siyasi əlaqələr mövcud olmuşdur. Bu xalqların etnik milli dəyərləri onları həmişə bir-birinə yaxınlaşdırmış, Ulu öndərimiz Heydər Əliyevin təbirincə desək, "bir millət, iki dövlət" əlaqələri türk dünyasında bu iki xalqı özünəməxsus şəkildə birləşdirmişdir. Sovet imperiyası tüğyan etdiyi bir zamanda belə bu iki qardaş xalq arasına ayrılıq toxumu səpə bilməmiş, bəzi qadağa və təzyiqlərə baxmayaraq, Azərbaycan- türk ədəbi əlaqələri heç vaxt zəifləməmiş, daim inkişaf edərək möhkəmlənmişdir.

Azərbaycan milli müstəqillik əldə edəndən sonra türk xalqları ədəbiyyatlarının öyrənilməsinə maraq artmağa başladı. Bu sahədə bir sıra elmi tədqiqat işləri yazılmaqla yanaşı, əsərlərin tərcüməsinə və nəşrinə böyük ehtiyac duyuldu. Əsərləri müqayisəli şəkildə araşdırılan sənətkarların öyrənilməsinə meyillər artmağa başladı. Son dövrlərdə bu sahədə elmi əhəmiyyət kəsb edən bir çox nailiyyətlər əldə edilib.

Yaradıcılığının öyrənilməsinə ehtiyac olan şairlərdən biri də türk təsəvvüf şairi Şeyx Qalibdir. Şairin yaradıcılığının Füzuli poeziyası ilə müqayisəli şəkildə öyrənilməsi günün aktual məsələlərindən biridir.

XVI əsrin böyük söz ustadı Məhəmməd Füzulinin yaradıcılığı bir çox dünya xalqlarının ədəbiyyatına təsir etmiş,

həmişə aktuallığı ilə diqqət mərkəzində olmuşdur. İstər öz dövründə, istərsə də sonrakı əsrlərdə onun poeziyasının təsiri ilə yüzlərlə davamçısı meydana gəlmiş, qəzəllərinə nəzirələr yazılmış, məsnəviləri nəzmə çəkilərək özündən sonra neçə-neçə məhəbbət mövzulu əsərlərin yaranmasına yol açmışdır. Şairin sözünün qüdrəti təkcə Azərbaycan ədəbiyyatı çərçivəsində qalmamış, sərhədləri aşaraq başqa ölkələrə də yayılmışdır. Hələ öz dövründə Füzuli sözünün sehri bir mayak kimi Yaxın Şərqdə parlamağa başlamışdır.

Məhəmməd Füzulinin təsiri ilə yazıb-yaratmış sənətkarlardan biri də Osmanlı divan poeziyasının son böyük şairi Şeyx Qalib olmuşdur. XVIII əsr türk təsəvvüf şairi Şeyx Qalibin istər "Hüsn və Eşq" əsərində, istərsə də qəzəl, qəsidə və qitələrində Füzulinin təsiri açıq şəkildə özünü göstərməkdədir.

Dissertasiya işində əsas məqsədimiz Məhəmməd Füzuli və Şeyx Qalibin yaradıcılıqlarının əsas qaynaqlarını tədqiq etmək, ortaq cəhətləri üzə çıxarmaq, bu iki sənətkarın dünyagörüşlərini müqayisəli şəkildə araşdırmaya cəlb etməkdir. Əsas məqsədlərdən biri "Leyli və Məcnun" poeması ilə "Hüsn və Eşq" əsərində mövzu, məzmun, forma, ideya, obraz, motiv və kompozisiya oxşarlıqlarını faktik material əsasında təhlil edib müqayisələr aparmaqdır. "Leyli və Məcnun"un təsiri ilə "Hüsn və Eşq" əsərinin qələmə alınması və onların müqayisəli təhlilini aparmaq tədqiqatın qarşıya qoyduğu əsas prinsiplərdən biridir. "Hüsn və Eşq" əsərinin alleqorik tərzdə yazılması baxımından Məhəmməd Füzuli poeziyasına poetik yaxınlığı müqayisə edilir. Şeyx Qalib "Divan"ının mövzu qaynaqlarının Füzuli qəzəlləri ilə oxşarlıqları paralellər əsasında izah edilir.

Müqayisəli ədəbiyyatşünaslıq bu iki sənətkarın yaradıcılığını daha ətraflı araşdırmaq və təhlil etmək baxımından böyük əhəmiyyət kəsb edir və bu baxımdan dissertasiya işinin mövzusunun aktuallığı özünü doğruldur.

Mövzunun tədqiq tarixinə nəzər saldıqda görürük ki, Azərbaycan ədəbiyyatşünaslığında yaradıcılığı az öyrənilmiş və az tədqiq olunmuş şairlərdən biri də Şeyx Qalibdir. Odur ki, Şeyx Qalibin həyatına və yaradıcılığına, əsərlərinin təhlilinə geniş yer

verilir, şairin Məhəmməd Füzuli yaradıcılığından təsirlənməsi müqayisələr əsasında təhlilə cəlb olunur. Tədqiqat işinin ayrıca bir fəslində Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması ilə Şeyx Qalibin "Hüsn və Eşq" əsəri müqayisəli şəkildə təhlil obyektinə çevrilib.

Araşdırmanın əsas mənbəyini Məhəmməd Füzuli və Şeyx Qalibin "Divan"ları təşkil edir. Mənbə kimi həmçinin Azərbaycan, türk, rus və başqa xalqların tədqiqatçılarının Məhəmməd Füzuli və Şeyx Qalibin yaradıcılığı ilə bağlı tədqiqatlarına, elmi-nəzəri qənaətlərinə istinad edilir, Məhəmməd Füzuli və Şeyx Qalib yaradıcılığı paralel şəkildə geniş və sistemli müqayisə, şərh və tədqiq edilir.

Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə Şeyx Qalib haqqında Mirzağa Quluzadə tərəfindən "Füzulinin lirikası"[1] adlı monoqrafiyada söz açılıb. Tədqiqatçı alim Füzulinin ədəbi təsirindən bəhs edərkən, Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması ilə Şeyx Qalibin "Hüsn və Eşq" əsərini qarşılaşdırmış, müqayisə nəticəsində əsərlərin bir mənbədən təsirlənərək yazıldığını, üslub və kompozisiya oxşarlığını aşkarlamışdır.

Daha sonra Şeyx Qalibin həyat və yaradıcılığı haqqında Aydın Abinin "Türkiyə ədəbiyyatı tarixi"[2] dərsliyində qısaca məlumat verilmiş, Məhəmməd Füzuli yaradıcılığı ilə yığcam müqayisəsi öz əksini tapmışdır.

Aydın Abinin "Füzuli və Türkiyə poeziyası"[3] adlı monoqrafiyasında da eyni müqayisələrə rast gəlmək olar. Daha sonra biz X.Hümmətovanın məqalələrində Şeyx Qalibin qəzəllərinin təhlilinə rast gəlirik. O, məqalələrində təsəvvüfün Qalib poeziyasındakı rolunu müxtəlif qəzəllərinin təhlilində araşdırıb.

Dissertasiyanın hazırlanmasında Azərbaycan alim və

---

[1] M.Y. Füzulinin lirikasi / M.Y.Quluzadə, red. H.Araslı, – Bakı: AMEA Nəşriyyatı, –1965. –s.474.

[2] Abıyev, A.M. Türkiyə ədəbiyyatı tarixi: [2 cilddə] / A.A. Abıyev, elmi red. f.e.d., professor N.Şəmsizadə. – Bakı: Bakı Universiteti nəşriyyatı, − c.1. – 2007. − 280 s.

[3] Abıyev, A.M. Füzuli və Türkiyə poeziyası: / A.A. Abıyev, elmi red. X.C.Quliyeva - Qafqazlı. –Bakı: Ozan, –2002. –280 s.

tədqiqatçılarından Mirzağa Quluzadənin, Aydın Abıyevin, Nəzakət Məmmədlinin, Məmməd Əliyevin, Xuraman Hümmətovanın, türk alim və tədqiqatçılarından Əli Nihat Tərlanın, Əbdülbaqi Gölpınarlının, Ali Alparslanın, Hüseyn Ayanın, Məhəmməd Nurdoğanın və başqalarının araşdırmalarından nəzəri-praktik şəkildə istifadə edilmişdir.

Karaman Gülay Fuad Köprülü haqqında apardığı araşdırmalarında göstərir ki, XVIII əsr türk şairi Şeyx Qalib haqqında Türkiyədə ilk elmi məqalələr yazan Fuad Köprülü (1890-1966) olmuşdur. Fuad Köprülü "Şeyx Qalibin qəzəlləri" adlı ilk məqaləsini 1912-ci ildə yazmışdır.

Gülay Karaman göstərir ki, "*Köprülünün gənclik illərinin məhsulu olan digər məqalələri ilə birlikdə Şeyx Qalibə dair yeddi məqaləsi də günümüzün türkcə əlifbası ilə yazılmışdır*"[4]. Bu əsərdən məlum olur ki, F.Köprülünün Şeyx Qaliblə əlaqədar yeddi məqaləsi var.

Abdulbaqi Gölpınarlı 1994-cü ildə "Şeyx Qalib divanından seçmələr" adı altında şairin şeirlərini çap etdirmişdir. Sonra Gölpünarlı "Hüsn və Eşq" əsərini müxtəlif zamanlarda geniş ön söz və izahlarla çap etdirmiş, əsərin türk klassik ədəbiyyatındakı yerindən söz açmışdır. Bu əsərin təsəvvüf poeziyasının sonrakı dönəmlərində özündən sonra neçə-neçə əsərlərin yazılmasına səbəb olmasından və təsir dairəsindən ətraflı bəhs etmişdir.

Əli Nihat Tərlanın "Ədəbiyyat məsəlləri" kitabında şairin əsərlərindən nümunələr verilmiş, Şeyx Qalib təsəvvüf ədəbiyyatının son nümayəndəsi kimi geniş oxucu kütləsinə təqdim edilmişdir.

Minə Mengi "Eski Türk ədəbiyyatı tarixi" kitabında şair haqqında söz açaraq onun İstanbulda doğulması, təkkə təhsili alması, III Səlimin sarayında yaşaması haqqında məlumat verməklə yanaşı, onun "Divan"ından seçmələri də əsərinə daxil etmişdir.

---

[4] Karaman, G. Fuad Köprülünün Şeyh Gâlibe Dair Yazıları Üzerine Bir Değerlendirme". Mavi Atlas, 7(1)/2019: –s.143-162.

Şairin "Divan"ı isə Naci Okcu[5] tərəfindən 2010-cu ildə çap edilmişdir. O, şairin həyatı, ədəbi kimliyi, şeirlərinin ümumi təhlilindən geniş söhbət açmış yeri gəldikcə əsərləri ilə bağlı geniş təhlillər aparmışdır.

2017-cı ildə Ali Cançelik "Osmanlının Bilginləri – 9" silsiləsindən "Şeyx Qalib"[6] kitabını çap etdirmişdir. Bu kitab beş başlıqdan ibarət olaraq oxuculara təqdim edilir.

Mətin Akkuş "Şeyx Qalibin şeir və şair yorumları: "Hüsn Eşqdə" poetika"[7] adlandırdığı məqalədə Aristotellə başlayan poetika sənətindən söz açaraq, günümüzə qədər gəlib çatan bu sənətin özəllikləri haqqında danışır.

Mətin Akar "Kaşqarlı Mahmuddan Şeyx Qalibə uzanan kültür körpüsü"[8] məqaləsində göstərir ki, həzrəti peyğəmbərlə bağlı şeirlərə yazılı ədəbiyyatda ilk dəfə Mahmud Kaşqarlının "Divan"ında rast gəlinir. Sonradan isə peyğəmbər mövzusuna bütün klassiklərin yaradıcılığında təsadüf olunur. *"Şair peyğəmbərin merac möcüzəsi aydınlıq bir gecədə gercəkləşdi deməklə, bu düşüncəsini təşbehlə, qapalı istiarə, tənasüb sənəti, həmən bir kəs tərəfindən bilinən bir qissəyə deyildiyi üçün də təlmih sənəti adlana bilər".*

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiq obyekti XVI əsr Azərbaycan şairi Məhəmməd Füzuli və XVIII əsr türk şairi Şeyx Qalibin şeirlər "Divan"ı, "Leyli və Məcnun", "Hüsn və Eşq" məsnəvisidir. Dissertasiya işinin predmeti kimi hər iki şairin mövzu qaynaqları, onların müqayisəli şəkildə təhlili, Qalib yaradıcılığında təsəvvüf poeziyasının mahiyyəti,

---

[5] Şeyh Galib. Divanı / Hazırlayan Naci Okcu. –Ankara: Diyanet Vakfi yayınları, 1 baskı, –2011. –958 s.

[6] Cançelik, A. Osmanlı bilginleri /A.Cançelik, Şeyh Galib. –İstanbul: –I baskı. –s.36. –2017. İlke Yayınçılık. Ümumi

[7] Akkuş Metin. "Şeyx Qalibin şeir və şair yorumları: "Hüsn Eşqdə poetika" / Eseri – Eşq // Şeyh Qalib haqqında Məqalələr ve Biblioqrafiya. çapa hazırlayan: Hanifə Koncu – Müjgan Çakar və Leyla Alptekin Sarıoğlu. –İstanbul: Bəylikdüzü. –2016, –s.128.

[8] Akar Metin "Kaşqarlı Mahmuddan Şeyx Galibe uzanan kültür köprüsü" / Eseri – Aşq // Şeyh Qalib hakkında Makaleler ve Biblioqrafi. çapa hazırlayan: Hanife Koncu – Müjgan Çakır və Leyla Alptekin Sarıoğlu. –İstanbul: Bəylikdüzü. –2016. –s. 170-174.

Azərbaycan şairlərinin vəsfi, hər iki şairin məsnəvisinin oxşar və fərqli məqamları, onların müqayisəsi və ədəbiyyatşünaslığımıza gətirdiyi yeniliklər, bu yeniliklərin ənənəvi xüsusiyyətlərlə sintezi nəzərdən keçirilmişdir.

Dissertasiyanın başlıca predmeti Şeyx Qalib yaradıcılığında Füzuli təsiri, hər iki söz xiridarının yaradıcılıqlarındakı tipoloji yaxınlıqlardır. Şeyx Qalibin yaradıcılığında Məhəmməd Füzuli ənənələri özünü ən çox şairin "Hüsn və Eşq" məsnəvisində göstərdiyi üçün əsərin təhlilini "Leyli və Məcnun" üzərində qurmaqla yanaşı, hər iki sənətkarın lirik şeirlərinin mövzu baxımdan müqayisəsi təhlilə cəlb olunub.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Şeyx Qalib yaradıcılığını bir bütöv olaraq təhlilə cəlb edilərək, poetik özünəməxsusluqlarına, ənənədən yararlanma səviyyəsinə aydınlıq gətirməkdir. Şeyx Qalib yaradıcılığında bəşəri sənətkar Məhəmməd Füzulinin təsiri və ondan mövzu və ideya, məzmun və sənətkarlıq baxımından yaradıcı şəkildə bəhrələnməsi aşkara çıxarılmışdır:

–Məhəmməd Füzuli və Şeyx Qalibin yaradıcılıqlarının əsas mövzu yaxınlığı müqayisə edilmiş;

–Şeyx Qalibin ənənədən bəhrənərək haqqında söz açdığı sələflərinə olan münasibətləri üzə çıxarılmış;

–Mövzunun əsas vəzifələrindən biri kimi didaktik məsnəvi və onun başlıca xüsusiyyətləri müəyyənləşdirilmiş;

–"Hüsn və Eşq" əsəri ilə "Leyli və Məcnun" poemasının mövzu, ideya, obraz, motiv və kompozisiya oxşarlıqları müqayisəli şəkildə təhlil edilmiş;

–"Leyli və Məcnun"un "Hüsn və Eşq" məsnəvisinə ideya cəhətdən təsirləri şərh edilmiş;

–"Hüsn və Eşq" məsnəvisi alleqorik və təsəvvüfi baxımdan təhlil edilmiş və s.

**Tədqiqatın metodu.** Dissertasiyanın əsasını tarixi-müqayisəli təhlil metodu təşkil edir. Eyni zamanda tədqiqat işində həm də, tarixi-tipoloji metodundan da istifadə edilib.

Tədqiqat işinin nəzəri əsasını görkəmli alimlərin Məhəmməd Füzuli və Şeyx Qalib haqqında elmi-nəzəri əhəmiyyət kəsb edən

fikir və müddəalar təşkil edir. Tədqiqat işində tədqiqat materialından asılı olaraq, analiz-sintez metodunun imkanlarından istifadə olunub.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** XVIII əsr türk şairi Şeyx Qalib yaradıcılığını Məhəmməd Füzuli ənənələri kontekstində tədqiq edən tədqiqatda müdafiəyə çıxarılan və mövzunu tam əhatə edən müddəalar aşağıdakılardır:

–Şeyx Qalib yaradıcılığının formalaşmasında ədəbi mühitin rolu;

–Şeyx Qalibin dövrünün ədəbi-mədəni mühiti ilə qarşılıqlı əlaqəsi;

–Şeyx Qalibin sələflərinə münasibətinin poeziyasında əksi;

–Məhəmməd Füzuli yaradıcılığının Şeyx Qalib poeziyasına təsiri;

– Problematika müxtəlif janr və məzmun cəhətlərinin qarşılıqlı təhlili əsasında təqdim edilir;

–Xalq yaradıcılıq nümunələrinin və dini mənbələrin, eləcə də təsəvvüf məzmunlu şeirlərin Şeyx Qalib yaradıcılığının əsas ideya qaynağı kimi verilməsi faktik materiallar əsasında əsaslandırılır;

–"Leyli və Məcnun" poeması ilə "Hüsn və Eşq" əsərinin yazılma səbəblərinin müqayisəsi və oxşarlığı;

–"Leyli və Məcnun" poeması ilə "Hüsn və Eşq" əsərindəki hadisələrin baş verdiyi məkanların müqayisəsi;

–"Leyli və Məcnun" poeması ilə "Hüsn və Eşq" əsərindəki qəhrəmanların başına gələn hadisələrin oxşar cəhətlərinin müqayisəsi;

–"Leyli və Məcnun" poeması ilə "Hüsn və Eşq" əsərinin məzmun cəhətdən müqayisəsi;

– Məsnəvilərin əsas qəhrəmanlarının oxşar xüsusiyyətləri və müqayisəli təhlili;

–"Leyli və Məcnun" poeması ilə "Hüsn və Eşq" əsərinin təsəvvüfi mahiyyət kəsb etməsi müqayisələr əsasında əsaslandırılır;

–"Leyli və Məcnun" poeması ilə "Hüsn və Eşq" əsərinin quruluş baxımdan müqayisəsi.

**Tədqiqatın elmi yeniliyi:** Şeyx Qalib yaradıcılığını Məhəmməd Füzuli ənənələri kontekstində tədqiq edən tədqiqat işinin elmi yeniliyi aşağıdakılardır:

–"Şeyx Qalib yaradıcılığında Füzuli ənənələri" mövzusundakı tədqiqat işi Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq geniş araşdırmaya cəlb edilib;

–Şeyx Qalib yaradıcılığından türk ədəbiyyatşünaslığında bəhs olunsa da, Azərbaycan elmi-nəzəri fikrində iki-üç məqaləni çıxmaq şərti ilə, demək olar ki, Şeyx Qalib haqqında söz açılmayıb. Şeyx Qalib yaradıcılığı Məhəmməd Füzuli poeziyası kontekstində dəyərləndirilir.

–Şeyx Qalib poeziyasının formalaşmasında Məhəmməd Füzulinin təsiri ilk dəfə olaraq tədqiqat obyektinə çevrilmişdir;

–hər iki şairin yaradıcılığı oxşar janr və mövzu baxımından konkret nümunələrlə geniş təhlil olunur;

–hər iki sənətkarın yaradıcılığında istifadə etdikləri qəzəl, qəsidə, təxmis, tərkibbənd və s. şeir janrlarının müqayisəsi verilir;

–şairin "Divan"ında Azərbaycan şairlərinə münasibət, onlardan bəhrələnməsi faktik materiallarla təhlil olunur;

–Azərbaycan ədəbiyyatşünaslığında "Leyli və Məcnun" poeması ilə "Hüsn və Eşq" məsnəvisi ilk dəfə olaraq paralel şəkildə geniş müqayisə olunur;

–Azərbaycan ədəbiyyatşünaslığında hər iki əsər ilk dəfə olaraq həm quruluş, həm də mövzu baxımdan geniş təhlil və müqayisələr əsasında araşdırılır;

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Ədəbi-nəzəri fikrin müəyyənləşdirdiyi prinsip və nəzəri-metodoloji müddəalar əsasında işlənilmiş dissertasiyanın elmi nəticələrinin əsas müddəaları aşağıdakı hallarda istifadə və tətbiq oluna bilər.

–Şeyx Qalibin həyat və yaradıcılığı mövzusunda araşdırma aparan tədqiqatçılara ciddi nəzəri mənbə ola bilər;

–Xüsusi kurs kimi ali məktəb auditoriyalarında tədris oluna bilər;

–Türk xalqları ədəbiyyatı fənnini ali məktəblərdə tədris edən müəllimlər metodik mənbə kimi yararlana bilər;

–Azərbaycan-Türkiyə ədəbi əlaqələri ilə bağlı dərsliklərin

hazırlanmasında;

–Türk xalqları ədəbiyyatı üzrə bakalavr və magistr təhsil pillələrinin dərs vəsaitlərinin hazırlanmasında;

–Çağdaş ədəbi-nəzəri fikrində Şeyx Qalib “Divan”ının araşdırılmasında;

–Türkiyə və Azərbaycan ədəbi əlaqələr tarixinin araşdırılmasında;

–Eyni zamanda təsəvvüf ədəbiyyatının öyrənilməsində əlavə vəsait kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəa və nəticələri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnal və məcmuələrdə, respublika və beynəlxalq əhəmiyyətli konfrans materiallarında əksini tapmışdır

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi “Giriş” (23.801), üç fəsil (I fəsil 2 paraqraf, 82.936 şərti işarə, II fəsil 3 paraqraf, – 52.172 şərti işarə, III fəsil 3 paraqraf, 59.351 şərti işarə), Nəticə (4.699 şərti işarə) və İstifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 222. 959 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində dissertasiyanın ümumi səciyyəsi verilir. Mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsasları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi göstərilmiş, nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası və strukturu şərh edilmişdir.

Dissertasiya işinin **"Şeyx Qalibin bədii yaradıcılığının formalaşmasında ədəbi-mədəni mühitin rolu və sələflik ənənəsi"** adlı birinci fəsil iki paraqrafdan ibarətdir. Dissertasiyanın bu fəslində Şeyx Qalibin həyatı və yaşadığı dövr haqqında ətraflı məlumat verilir. O zamankı türk dünyasında ictimai vəziyyət və Şeyx Qalibi yetirən dövrün mənzərəsinin təsviri ətraflı şəkildə izah olunur. Daha sonra Şeyx Qalibin yaradıcılığındakı ənənədən bəhrələnmə, "Divan"da Azərbaycan şairlərinə münasibətin əksi və onlara yazılan nəzirə və müxtəlif şeir şəkillərindən söz açılır. Şeyx Qalibin özündən əvvəl yaşayıb-yaradan sənətkarlara münasibəti, onlara "Divan"ında ayrıca şeirlər həsr etməsi, istərsə də məsnəvisində onların adını anması kimi özünəməxsusluqlar təhlil olunub. "Divan"ında şair Mövlana, Nizami, Əttar, Şəms Təbrizi, Sultan Vələd, Nəvai, Füzuli, Süruri, Gülşəni, Xoca Süleyman Nəşət, Pertev, Naili, Nabi, Nədim, Buxaralı Şövkət və digər sənətkarlardan bəhrələndiyini qeyd edir. Şair əsərlərində Mövlana və onun "Məsnəvi"sindən təsirləndiyini belə ifadə edir:

*Əsrarını Məsnəvidən aldım,*
*Çaldım, vəli meri, malı çaldım*[9].

Özündən əvvəlki sələflərindən təsirlənən şair bəzən "Divan"ında onların adını çəkməklə kifayətlənməyib, onlara qəsidə, qəzəl, təxmis kimi janrlarda şeirlər də ithaf etdiyini

[9] Şeyh Galib. Divanı / Hazırlayan Naci Okcu. –Ankara: Diyanet Vakfı yayınları, 1 baskı, –2011. –958 s.

görürük. Təxmislərinin birində Füzulini məhəbbətlə yad edən şair deyir:

*Əsəda, eyləyəməm doğrusu mən tərki ədəb,*
*Deməzəm söylə nədəndir bu təcahül bu qəzəb.*
*Hər işi hikmətü hər tavrı kəramətdir həp*
*Yar həm söhbətim olmasa Füzuli nə əcəb,*
*Özünə söhbətimi ar bilibdir bilirəm*[10].

Tədqiqat işində şairin Füzulidən təsirlənməsi haqqında ümumi məlumat verilir. Hər iki şairin sənətə gəlişlərindəki oxşar hadisələr təsvir edilir. **"XVIII yüzillikdə Türkiyədə ədəbi-mədəni mühit və Şeyx Qalibin bədii yaradıcılığı"** adlı birinci paraqrafda şairin XVIII əsrdə doğulub boya-başa çatdığı şərait haqqında dolğun məlumat verilir. Bu dövrün ən mühüm hadisələrindən biri kimi Osmanlı dövlətinin apardığı müharibə və islahatları, o dövrdə yazıb-yaradan şairlər haqqında məlumatları, onların qoyub getdiyi zəngin irsi göstərmək olar.

Tarix boyunca Osmanlı hakimiyyətinin uzunömürlü olmasında bu hadisələrin önəmli rolu olmuşdur. Həmin dövrdə divan şairlərinin meydana gəlməsində tarixi dönəm və sosial şəraitin əsas təsiri olub. İstər Osmanlı imperatorluğu, istərsə də sonrakı dövrlərdə divan ədəbiyyatının öyrənilməsi və divan şeirinin araşdırılması həmişə diqqət mərkəzində olmuşdur. Bu da ondan irəli gəlirdi ki, bütün dövrlərdə hökmdarlar şairə və şeirə yüksək qiymət vermiş, onlardan bir çoxu şeir vurğunu olmuşlar. Bu sevgi onlarda divan şeirinə və o şairlərin sözündəki hikmətdən, onların yaradıcılığına bürünən rəngarənglikdən, o şeirlərdə gizlənən məna və ifadə gözəlliyindən irəli gəlirdi. Bu şairlərin çox qisminin poeziyasında insanları haqqa, ədalətə səsləməklə bərabər, dövrün hökmdarına qarşı xalqa inam və rəğbət hissi aşılamasından bəhs olunur.

**"Şeyx Qalibin yaradıcılığında türk və Azərbaycan**

---

[10] Şeyh Galib. Hüsn ü Aşk / Hazırlayanlar: Orhan Okay, Hüseyin Ayan. – İstanbul: Dergah Yayınları, 3 baskı. –2005. –464 s.

**ədəbiyyatının sələflik ənənəsi”** adlı ikinci paraqrafda isə Şeyx Qalib “Divan”ında türk və Azərbaycan şairlərinə olan münasibət öz əksini tapır. Biz bu paraqrafda Şeyx Qalibin Nizami Gəncəvi, Şəms Təbrizi, Fəridəddin Əttar, Sultan Vələd, Əlişir Nəvai, Məhəmməd Füzuli, Saib Təbrizi, Süruri, İbrahim Gülşəni kimi söz xiridarlarını məhəbbətlə yad etməsi, onların adını sevərək anması haqqında söz açmışıq. Bu paraqrafda həm də Qalibin azərbaycanlı şairlərin bəzilərinə nəzirə, müsəddəs, bəzilərinə isə təxmislər yazdığını qeyd etmişik. Bu paraqrafda Qalibin türk sələflərinə olan münasibəti də tədqiqata cəlb edilib. Onlardan yaradıcı bəhrələnən şairin sələflərinə olan münasibətinə aydınlıq gətirilib. Şair ilhamını “Məsnəvi”dən almasını deməklə, Mövlana sənətinə olan sonsuz sevgisini əks etdirmiş, bununla da əbədilik qazanmışdır. Türk şairlərindən Mövlana, Əsrar Dədə, Xəyali, Naili, Şeyxi, Nəşəti məhəbbətlə anmış, onlara ayrıca şeirlər həsr etmişdir.

Dissertasiya işinin üç paraqrafdan ibarət olan ikinci fəsli **“Məhəmməd Füzuli yaradıcılığının Şeyx Qalib yaradıcılığına təsiri”** adlanır. **“Məhəmməd Füzuli və Şeyx Qalibin bədii əsərlərinin ideya və məzmun oxşarlıqları”** adlanan birinci paraqrafda hər iki sənətkarı birləşdirən ortaq cəhətlərdən söz açılır. O da məhəbbət, eşq mövzusudur. Sevgini, eşqi sonsuz məhəbbətlə tərənnüm edən bu şairlər dünyəvi eşqin əzablarını dadmış, tale yüklü bir həyat yaşamaqla ruhi sarsıntılarını şeirə çevirə bilmişlər. Qəzəllərin mahiyyətində duran sevginin insanın həyatında əsas rol oynaması müqayisəli şəkildə təhlilə cəlb olunub.

Hər iki şairin “Divan”ında aparıcı yeri lirik qəzəllər tutur. Bu eşq konsepsiyası onların yaradıcılığında müxtəlif zaman kəsimində dəyişərək ilahi yaradana doğru irələləyir. Bu irəliləyiş ilk olaraq real zəmində aşiq və məşuq arasında baş verir. Füzuli yaradıcılığında bunu belə dilə gətirir:

*Könlüm açılır zülfi-pərişanını görgəc,*
*Nitqim tutulur qönçeyi-xəndadını görgəc.*

*Baxdıqca sənə qan saçılır didələrimdən,*
*Bağrım dəlinir navəki-müjganını görgəc*[11].

Buna müvafiq olaraq Şeyx Qalib də ilk öncə dünyəvi məhəbbəti vəsf edərək deyir:

*Eşqi söhbət matləi divanı səhətdir mənə,*
*Məqtəi nəzmi həyatım qatı ülfətdir mənə.*

*Sağəri gülgün şərari ahi həsrətdir mənə,*
*Çeşmi pürhun qonçeyi gülzarı vüslətdir mənə*[12].

Məhəmməd Füzuli kimi Şeyx Qalibin də real, dünyəvi məhəbbətin tərənnümünə həsr etdiyi şeirlərin daxili anlamında ilahi eşq anlayışı gizlənməkdədir. Şeyx Qalib hər şeydən öncə qəlbi Allah eşqi ilə döyünən bir təsəvvüf şairdir. Onun şeirlərinin ideya qaynağını Allah sevgisi, "Quran"a bağlılıq, peyğəmbərlərə məhəbbət təşkil edir. Mövləvi şeyxi olan Qalib, təbii ki, Allah sevgisini bütün yaradıcılığı boyunca qoruyub saxlaya bilmişdir.

Füzuli bir qəzəlində deyir:

*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən surət xəyal eylər məni* [13].

Qalib isə deyir:

*Xabi xəyalı qəfləti aləm sanır görən ,*
*Mirat içində surəti adəm sanır görən*[14].

---

[11] Məhəmməd Füzuli. Seçilmiş əsərləri / Tərt. ed. və ön söz. Ə.Cəfər, red. M.Sultanov. –Bakı: Yazıçı, –1984. s.268.
[12] Şeyh Galib. Divanı / Hazırlayan Naci Okcu. –Ankara: Diyanet Vakfı yayınları, 1 baskı, –2011. –958 s.
[13] Məhəmməd Füzuli. Əsərləri. [6 cilddə] / Tərt.ed. H.Araslı, red. T.Kərimli, Ön söz. H. Araslı və S.Əlizadə. –Bakı: Şərq-Qərb, –2005. –c.2. –336 s.
[14] Şeyh Galib. Divanı / Hazırlayan Naci Okcu. –Ankara: Diyanet Vakfı yayınları, 1 baskı, –2011. –958 s.

Allah özünün varlığını dərk etdirmək üçün insanı özünə bənzər biçimdə yaratdı. Odur ki, İnsani-kamil Allahın surəti anlamındadır. İnsan Tanrının surətidir. Hər iki sənətkarı heyrətə salan Tanrının gözəlliyidir. Hər iki şairin yaradıcılığında qəm, kədər, həsrət əsl aşiqin sevinc və şadlığıdır. Kamil insan bütün bu əzablara sinə gərən cəfakeş aşiqlərdir. Bütün bu dərdlərin dərmanı eşqdir.

Bu fəslin ikinci paraqrafı **"Məhəmməd Füzuli yaradıcılığının Şeyx Qalibin bədii əsərlərinin janr biçiminə təsiri"** adlanır. Bu paraqrafda hər iki şairin qəsidə, təxmis, məsnəvi və s. janrlarda yazdıqları şeirlər mövzu baxımdan təqiqata cəlb edilərək təhlil olunub. Qalib yaradıcılığında qəsidələrin ideya məzmun oxşarlığı ilə Füzuli qəsidələri müqayisə olunur. Hər iki sənətkarı düşündürən problemlər qəsidələrin ideya məzmununda öz əksini tapır. Bu qəsidələrin bəzilərində dövrünün hökmdar və tanınmış şəxsiyyətlərindən bəhs edən Qalib həmçinin bu qəsidələrlə yaşadığı dönəmin vəziyyəti, insanların dövrün tanınmış şəxslərinə olan münasibətini işıqlandırır. Bu paraqrafda Füzuliyə yazılan təxmislər təhlil edilərək şairə olan münasibət, onun sənətkarlığı diqqət mərkəzinə çəkilir.

Məlumdur ki, lirik növün başqa janrlarına nisbətən qəsidə janrı şairə fikrini daha geniş şəkildə ifadə etməyə imkan verir. Şair də müəyyən bir hadisə və əhvalatı oxucuya çatdırmaq üçün qəsidə janrının geniş imkanlarından istifadə edir. Qalib bu janra müraciət etməklə həmin dönəmdə baş verən hadisələri oxuculara daha ətraflı şəkildə çatdırır. Bu qəsidələrlə biz həm də Qalib dönəmində yaşayan hökmdar və görkəmli şəxsiyyətlərin əməlləri ilə yaxından tanış oluruq. Onların şairə olan münasibəti, dövrünün elm adamları ilə rəftarı, bir daha açıq şəkildə gözümüzün önündə canlanır. Qalib III Sultan Səlim haqqında belə deyir:

*Kərəmlər kim sənin dövründə gördü Qalibi naçar,*
*Hüseyn Baykaradan görmədi Cami kimi yekta.*

*Sənin sayəndə dərgahi fələkmanəndi Mönlada*
*Bu abdi kəmtərinin namı oldu şeir ilə iqba*[15].

Biz bunu Məhəmməd Füzulinin Şah İsmayıl Xətayiyə, türk sultanı və Bağdadın müxtəlif hakimlərinə həsr etdiyi qəsidələrdə görürük. Füzuli qəsidələrində vəsf etdiyi hökmdarların ədalətindən, ölkənin tarixindən və təbiətin vəsfindən özünəməxsus şəkildə söz açır. O, bəzi qəsidələrində həm də ölkəsinin ictimai məsələlərindən söz açmaqdan belə çəkinmir. Bu baxımdan Füzuli qəsidələri özündən əvvəlki şairlərin qəsidə yaradıcılığından fərqlənir. Bildiyimiz kimi Füzulinin yaradıcılığının ilk dövrü Səfəvilərin hakimiyyəti illərinə, müəyyən dövrü isə Osmanlıların hakmiyyəti zamanına təsadüf edir. Şair qəsidələrinin birində hökümdarlardan rəğbət görmədiyini belə deyir:

*Nə mövcud olsa, əsababi-dünyadan deyil müşkil,*
*Bu müşkildir ki, mövcud olmayan bir hakimi-adil* [16].

İkinci fəslin **"Məhəmməd Füzuli və Şeyx Qalibin yaradıcılığında obrazlılıq; ney və gül obrazının onların poeziyasında səciyyəsi"** adlı üçüncü paraqrafında isə məsnəvilərdəki obrazların funksionallığından söz açılır. Şeyx Qalibin "Hüsn və Eşq" didaktik əsərində bir sıra hadisələri məhz Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərinin təsiri ilə yazıldığını, əsərdəki obrazların bəzi fərqliliklər nəzərə alınmazsa üst-üstə düşdüyünü görürük. Bu baxımdan hər iki əsərin məzmun, ideya, obrazlar sistemi müqayisə edilmişdir. Hər iki əsər – istər "Leyli və Məcnun", istərsə də "Hüsn və Eşq" poemasının əsas ideyası Mütləq gözəlliyə çatmaq üçün seyri-süluka çıxan aşiqin mənəvi yolçuluğunun təzahürüdür. Adı çəkilən hər iki məsnəvidəki əsas obrazlarla yanaşı, məcazi funksiya daşıyan

---

[15] Şeyh Galib. Divanı / Hazırlayan Naci Okcu. –Ankara: Diyanet Vakfı yayınları, 1 baskı, –2011. –958 s.
[16] Məhəmməd Füzuli. Əsərləri. [6 cilddə] Tərt.ed. H.Araslı, red. T.Kərimli, Ön sözün müəllifi, H. Araslı və S.Əlizadə. –Bakı: Şərq-Qərb, –2005. –c.5. –224 s.

obrazlardan da bəhs olunur.

Orta əsr poeziyasında müraciət edilən, yəni ədəbiyyatda təşbeh kimi işlədilən obrazlardan biri də ney obrazıdır. Biz bu obraza Cəlaləddin Rumi, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Şeyx Qalib və Seyid Əzim Şirvaninin yaradıcılığında rast gəlirik.

Ədəbiyyatda bu obraza təşbeh edilməsinin özünəməxsus xüsusiyyətləri var. Poeziyada ney ayrılıq, həsrət, intizar, qəriblik, sıxıntı, məlal, hicran, darıxmaq və s. funksiyaları özündə əks etdirir. Neyin - cansız qamışın səsinin bu qədər geniş funksiya daşıyaraq poetik ifadə vasitəsi olan metofor kimi işlənməsinin, şairlərin ona təşbeh etməsinin tarixi kökləri var. Lirik şairlər hər şeydən əvvəl neyin səsi ilə aşiqin iztirablarını müqayisə etmiş və onlar arasında bir yaxınlıq və oxşarlıq olduğunu görmüşlər. Odur ki, şairlər də aşiqin iztirablarını göstərmək üçün o səsdən istifadə etmiş, ona təşbeh etmişlər. Əsli xalq təfəkküründən gələn neylə bağlı əhvalatlar xalqın gen yaddaşında qorunub saxlanılır. Bütün yaradıcılıq ilhamını xalqdan alan hər iki sənətkar yaddaş kodundan bəhrələnərək onlardan istifadə etmişlər.

Füzuli deyir:

*Naləndədir ney kimi avazeyi- eşqim, bülənd*
*Nalə tərkin qılmazam ney tək kəsilsəm bəndi bənd*[17].

Orta əsr şairlərinin tez-tez müraciət etdiyi təbiət obrazlarından biri də gül obrazıdır. İstər şifahi ədəbiyyatda, istərsə də yazılı ədəbiyyatda gül obrazına müxtəlif yöndən yanaşmaya, onlardan bir vasitə kimi istifadəyə, demək olar ki, bütün dövrlərdə rast gəlirik.

Məhəmməd Füzuli deyir:

*Canə basdım qönçəvəş peykahını, ey tazə gül,*
*Dözmək üçün hicrinə düzdüm dəmirdən bir könül.*

---

[17] Məhəmməd Füzuli. Əsərləri. [6 clddə] / Tərt.ed. H.Araslı, red. T.Kərimli, Ön sözün müəllifi, H. Araslı və S.Əlizadə. – Bakı: Şərq-Qərb, –2005. –c.1. – 400 s.

*Vəh nə sahisən ki, oddan su çıxardın, sudan od,*
*Tərlədib rüxsarını gül-gül qılanda tabi-mül*[18].

Şeyx Qalib isə deyir:

*Lafzi- rəngin olur əbyati- xəyal üstünə gül*
*Xoş gəlir gülşəni-fikrətdə nihal üstünə gül.*

*Kimsə nəqş eyləmədi safhai xatirdə dəha*
*Ruhu onun kimi balın vüsal üstünə gül*[19].

Tədqiqat işinin üçüncü fəsli **"Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının Şeyx Qalibin "Hüsn və Eşq" əsərinə təsiri, bədii dil və struktur yaxınlığı"** adlanır. Bu fəsil də özlüyündə üç paraqrafdan ibarətdir. Fəslin **"Məhəmməd Füzuli yaradıcılığının Şeyx Qalibin əsərlərinin bədii dilinə təsiri: bədii təsvir və ifadə vasitələrinin işlənilmə xüsusiyyətləri"** adlı birici paraqrafda həm də məsnəvilərin quruluş yaxınlığı və oxşarlığı müqayisə olunur. "Hüsn və Eşq" əsərində köməkçi obrazların mifik funksiya daşıması, onların daha çox real aləmdən uzaqlaşması, əsərin təsəvvüf gücünü artırır. Hər iki əsərdəki obrazların dilindən verilən təsvir və ifadə vasitələrinin daşıdığı funksiyadan bəhs edilir.

Məhəmməd Füzulinin "Leyli və Məcnun" Şeyx Qalibin "Hüsn və Eşq" poemasında istifadə olunun bədii ifadə vasitələrindən təzad əsas yerlərdən birini tutur. Bu, ilk növbədə iki əsərin əsas ideyasında özünü göstərir. Çünki cəmiyyət ilə qəhrəmanların istək və arzuları arasında keçilməz sədd var. Bu sədd əsərlərin ideyası ilə cəmiyyət arasında təzadın olması, bu təzadın ən son kulminasiya nöqtəsi isə sevən aşiqlərin cəmiyyətdən uzaqlaşmasıdır. Məcnun səhraya, Hüsn isə kimyanı

[18] Məhəmməd Füzuli. Əsərləri. [6 cilddə] / Tərt.ed. H.Araslı, red. T.Kərimli, Ön sözün müəllifi H. Araslı və S.Əlizadə. –Bakı: Şərq-Qərb, – 2005. –c.4. –344 s.
[19] Şeyh Galib. Divanı / Hazırlayan Naci Okcu. –Ankara: Diyanet Vakfı yayınları, 1 baskı, –2011. –958 s.

əldə etmək üçün mənalar aləminə yola düşür.

Təsəvvüf ədəbiyyatında ağıl aşiqə müəyyən məqama qədər kömək edib, onunla yoldaşlıq edir. Müəyyən sərhəddən sonra aşiqə ağıl yox, eşq yardımçı olur. İlahi eşqə qovuşma “bir ilə bir olmaq” məqamında ağıl aradan qalxaraq aşiq ikilik halından çıxıb bir olur. Hər iki əsərdə məhəbbət yolunda çəkilən iztirablar, tökülən göz yaşları sevən aşiqlərin cəfasını simvolizə edir.

Şeyx Qalibin “Hüsn və Eşq” əsərində əsas qəhrəmanlar olan Hüsn və Eşq də daxil olmaqla bütün obrazlar rəmzi obrazlardır. Bu poemada qəm, kədər, hicran, bəla, atəş, atəş dənizi, söz, təbib, mum kimi rəmzi obrazlar şairin bütövlükdə ruhi aləminin ortaya qoyulmasında aparıcı xüsusiyyətə malikdir.

Əsərin əsas qəhrəmanı Eşqdir. Qalibə görə dünya onun üzərində bərqərar olub. Onsuz dünya bir heçlik aləmidir, heçdir. Şair poema boyunca eşqin varlığını həm real zəmində, həm də mücərədlik fonunda təqdim edir.

Simvolik obraz olan Eşq vurğunu olduğu Hüsnün daşıyıcısıdır. Bu gözəllik ilk öncə əsər boyunca zahiri formanın təzahürü, getdikcə isə mücərrədliyə yol açır. Hüsnsüz Eşq yoxdur, çünki eşq gözəlliyin vurğunudur. Bu baxımdan poetik təsvir kimi hər iki obraz metaforik fiqurdur. Bir mücərrəd anlayış kimi Hüsn Eşqin sevgi aləmində onu tamamlayan, onu bütövləşdirən, onun yarısını təşkil edən obrazdır. Bu baxımdan sevən aşiq rolunda, vurğun aşiq obrazının daşıyıcısı olan Eşq qəm mücəssəməsidir. Əsər boyunca kədər, qəm, əğyar obrazları simvolik surətlər kimi iştirak edir. Füzuli yaradıcılığında biz Məcnun obrazında onun qəmkeş, qəmin hərifi olan aşiq qismində iştirakını görürük.

Şeyx Qalibin lirik-psixoloji yaşantılarını əks etdirən şeiriyyət dünyasında zahirən real görünən anlayışların özlərində çoxqatlı məna anlamı gizlənir. Bu böyük sənətkar özünün elmi, fəlsəfi, dini və mistik baxışlarını rəmzi fiqurlar, metaforik obrazlar vasitəsilə əks etdirmişdir.

Bu fəslin ikinci paraqrafında **“Məhəmməd Füzulinin “Leyli və Məcnun” poemasının Şeyx Qalibin “Hüsn və Eşq” əsərinə təsiri”** öz əksini tapır. Bu paraqrafda əsərin mövzusunun Füzulinin “Leyli və Məcnun” əsərindən götürüldüyü dəqiq

faktlarla sübut olunur. Hər iki əsərdə hadisələrin baş verdiyi məkan Ərəbistandır. Bütün əhvalatlar övlad həsrəti ilə yaşayan ailədə baş verir. Uşaqların doğulması, məktəbə yollanması, məktəbdə bir-birinə aşiq olması, valideynləri tərəfindən məktəb qadağaları və s. kimi hadisələr müqayisəli şəkildə təhlil olunur.

Əsərləri müqayisə edəndə görürük ki, süjet xətti və əhvalatların başvermə məqamları eynidir. Bu da əsərlərin məzmun yaxınlığını ortaya qoyur.

Hər iki əsərin mövzusu qədim ərəb əfsanəsindən götürülüb. Əsərdəki hadisələr ərəb qəbillələrindən ("bəni-məhəbbət" sevgi oğulları diyarı) birində baş verir. Varlı ailələr uzun müddətdir ki, övlad həsrətilə yaşayır, Allaha yalvararaq övlad istəyirlər, çünki onları bu dünyada əbədi yaşadan özlərindən sonra qoyub gedəcəkləri övladları ola bilər. "Leyli və Məcnun" əsərində bu əhvalatı şair belə ifadə edir:

*Gər qılsa onu tələf həvadis,*
*Yox bir xələf ki, ola varis.*
*Fərzəndsiz adəmi- tələfdir,*
*Baqı edən adəmi xələfdir*[20].

Şeyx Qalibin "Hüsn və Eşq" əsərində əhvalatlara gəldikdə hadisələr "bəni- məhəbbət" diyarı adlanan yerdə baş verir. Bu diyarda yaşayan iki ərəb ailəsinin övladı olmur. Bu ailələrin təsvirini verən şair övladsızlıqdan onların çəkdikləri əziyyəti mübaliğəli şəkildə oxucuya çatdırır. Onların üzlərinin günəşdən qaraldığını, çadırlarının yoxluq ahlarının dumanı kimi göyləri örtdüyünü, söhbətlərinin ney kimi iniltili olduğunu vurğulayır. Müəyyən vaxtdan sonra Allah bu ailələrin də səsini eşidir və onları sevindirir. İllərcə övlad həsrəti ilə yaşayan ailələrdə iki uşaq dünyaya gəlir. Bu uşaqların həyata gəlişini şair belə təsvir edir:

*Oldu bu saraya panihadə,*
*Ol gecə iki kübarzadə.*

[20] M. Füzuli. Leyli və Məcnun / Redaktor H.Araslı. –Bakı: Gənclik, –1977, –s. 210

*Filhal açıldı sübhi ümmid,*
*Həm mah doğdu və həm də xurşid.*

*Ol halə səbəb bu iki şehmiş,*
*Hər biri süvari mehrü mehmiş.*
*Amma biri duxtəri səmən bər,*
*Biri püsəri Məsih manzar*[21].

Yenicə doğulan uşaqlara ad qoyurlar. Həm Məhəmməd Füzuli, həm də Şeyx Qalib məsnəvisində ad qoyma prosesi eyni ritualla həyata keçirilir. Uşaqlara qoyulan adların rəmzi mənası qəhrəmanların hüznlü taleyinin göstəricisi kimi, onların sonrakı həyat yolunun xəttini cızır. Şair yeni doğulan uşaqların adlarından başqa onları xalq arasında Leyli və Məcnun, Vamiq və Əzra kimi tanınacağını deməklə, öncədən dillərə düşücək bir eşq hekayəsinin yaşanacağından xəbər vermiş olur. Sanki qəhrəmanların adları onların sonrakı taleyini kodlaşdırır. Şair deyir:

*Hüsn dedilər o doxtərə ad*
*Fərzəndi güzünə Eşqi naşad.*

*Hüsnə dedi sonra kimi Leyla,*
*Şirin dedi kimi, kimi Əzra*

*Məcnun qoydu kimi Eşq üçün ad,*
*Vamik dedi kimi, kimi Fərhad*

*Sonra o lüğət olub digər gün,*
*Leyla dedi Eşqə Məcnun*[22].

Məsnəvilərdəki oxşar obrazlardan biri də dayə obrazıdır. Dayə obrazı hər iki əsərdə qəhrəmanların bu aləmlə əlaqəsində bir vasitəçi

---

[21] Şeyh Galib. Hüsn ü Aşk / Hazırlayanlar: Orhan Okay, Hüseyin Ayan. – İstanbul: Dergah Yayınları, 3 baskı. – 2005. –464 s.
[22] Şeyh Galib. Hüsn ü Aşk / Hazırlayan: Muhammet Nur Doğan. –İstanbul: Yelkenli, –2008, –496 s.

rolunu oynayır. Baş verəcək hadisələrin qəhrəmanlara çatdırılması dayələr vasitəsi ilə həyata keçirilir.

Şeyx Qalib əsərində Azərbaycan şairi Füzulinin adını çəkməklə "Hüsn və Eşq"in məhəbbətini "Leyli və Məcnun"un məhəbbəti ilə müqayisə edərək deyir:

*Kim gövhəri Hüsnə talibəm mən,*
*Qovğayi- tələbdə Qalibəm mən* [23].

"Leyli və Məcnun" əsərində isə Məhəmməd Füzuli belə deyir:

*Təmiri xərabə talibəm mən,*
*İnşallah ki, qalibəm mən* [24].

Əsərdəki hadisələrdən məlum olur ki, naz-nemət içərisində böyüyən qəhrəmanlar müəyyən müddətdən sonra məktəbə yollanırlar. Məktəbin elm, tərbiyə, təhsil məkanı kimi verilməsi hər iki əsərdə sevgi diyarının başlanğıcı kimi təqdim olunur. Bir sözlə, məktəb elm-hikmət məkanı rolunu oynayır. Burada qəhrəmanlar özlərini dərk edib ilahi eşqin sirlərinə sahib olurlar. Bu motivin qəhrəmanları bir-birinə bağlayan bağlar kimi verilməsi, onların kamilləşməsi məhz elm aləmində, məktəbdə baş verir.

Həm "Leyli və Məcnun", həm də "Hüsn və Eşq" əsərində ilk sevgiyə mübtəla olan qızlar olur. Məcnunu görüb tanıyandan sonra Leyli ona vurulur:

*Min şövq ilə dərdnak oldu,*
*Ol nadirə həm ki, Qeysi gördü,*
*Min zövq bulub, özün itirdi,*
*Gördü ki, bir afəti-zamanə,*
*Misli dəxi gəlməmiş cahanə* [25].

"Hüsn və Eşq" əsərində Şeyx Qalib belə deyir:

---

[23] Şeyh Galib. Hüsn ü Aşk / Hazırlayan: Muhammet Nur Doğan. –İstanbul: Yelkenli, –2008, –496 s.
[24] M. Füzuli. Leyli və Məcnun / Redaktor H.Araslı. –Bakı: Gənclik, –1977, –s. 210
[25] Yenə orada – s.210

*Bər hökmü qəzaya namüvafiq,*
*Hüsn oldu cəmali Eşqə aşiq.*

*Min can ilə Hüsni aləmara,*
*Çün oldu o Yusifə Züleyxa,*

*Məşuq olacaqkən, oldu aşiq,*
*Əzra olacaqkən, oldu Vamiq,*

*Etdi ruhi Hüsni nesterən zar,*
*Rüxsari Eşqə aşiqi rüxsar.*

*Əlif oxusa qəddin eyləyub yad,*
*Ta ərşə çıxardı, ahü fəryad*[26].

Şair verdiyimiz bu nümunədə göstərir ki, Hüsn Eşqin simasını görərkən ona aşiq olur.

III fəslin üçüncü paraqrafı **"Məhəmməd Füzuli və Şeyx Qalib məsnəvilərinin quruluş yaxınlığı"** adlanır. Hər iki əsərin mövzusunun eyni qaynaqdan alınması, əsərdəki hissələrə adların verilməsi, ənənəvi girişdən istifadə, saqiyə müraciət, qəzəllərdən istifadə və s. əsərlərin struktur, mövzu və ideya yaxınlığını təsdiq edir.

Hər iki əsərin məzmununda onların yazılma səbəbi və yazılma tarixi dolğun şəkildə əks olunub. Məsnəvi şəkilində, yəni misraları cüt-cüt qafiyələnən şeir formasında yazılan bu əsərlər klassik ənənə ilə başlayır. Şeyx Qalibdən fərqli olaraq Məhəmməd Füzuli "Leyli və Məcnun" əsərində nəsr şəkilində yazılmış dibaçədən istifadə edir. Dibaçənin əsərin məzmunu ilə heç bir əlaqəsi yoxdur, o daha çox elmi-nəzəri mahiyyət daşıyır. Bu hissədə biz şairin geniş poetik imkanlarını əks etdirən, poetik mahiyyət kəsb edən lirizminə, lirik ifadələrinə, mübaliğə və təşbehlərinə rast gəlmirik.

"Leyli və Məcnun"dan fərqli olaraq, "Hüsn və Eşq" əsəri alleqorik bir əsərdir. Əsərdəki başlıqlarda poetik şeiriyyəti, lirizmi görmürük.

[26] Şeyh Galib. Hüsn ü Aşk / Hazırlayanlar: Orhan Okay, Hüseyin Ayan. – İstanbul: Dergah Yayınları, 3 baskı. – 2005. –464 s

Qalibin əsərində demək olar ki, bütün başlıqlar farscadır. Şair müxtəlif fəsillərə verdiyi kiçik başlıqlarla əhvalata başlayır. Bunlardan bir neçəsini nəzərdən keçirək. Məsələn; "Dər vəsfi Mollayi- Cünün", "Dər vəsfi- Eşq", "Xitabi saqi", "Hali - Eşq", "Tazarru kerdeni Eşq ba kabile (Eşqin qəbiləyə yalvarışları), "Sifəti çak div və sərgüzəşt" (Quyuyla div və Eşqin başından keçənlər) və s.

Məsnəvinin ənənəvi başlıqlarla başlaması Məhəmməd Füzulidən fərqli olaraq Qalibin əsərində bir qədər fərqli formada özünü göstərir. "Hüsn və Eşq" poemasının əsas hissəsindən əvvəl Tövhid, Nət, Həzrəti Mövlanənin vəsfi, şairin özü haqqındakı mədhiyyəsi verilib. Əsərdə ənənəvi hissədən sonra "tardiyyə" (gecikmə) adlanan bölüm var. Bu tardiyyə müxəmməs, yəni beşlik formasındadır. Burada şair baş verəcək hadisəni və ya haqqında danışacağı əhvalatı monoloq şəklində saqiyə müraciətlə təqdim edir.

*Ey gönçə, uyu bu az zamandır,*
*Çərxin sənə məqsədi yamandır.*
*Zira qatı tündü biamandır,*
*Lütf etməsi də vəli gümandır.*
*Xavfim bu ki pək xarab olarsan* [27].

Hər iki əsərdə müxtəlif şeir janrlarından istifadə olunub. Müxtəlif şeir janrına müraciət etməklə şairlər qəhrəmanların hiss- həyəcanlarını daha dolğun, daha poetik formada oxucuya çatdıra biliblər.

Əsərləri quruluş baxımdan bir-birinə yaxınlaşdıran məqamlardan biri də orada olan məktublar və onların janlarıdır. Füzulinin "Leyli və Məcnun" əsərində sevgililərin bir-birinə yazdıqları məktublar qəzəl janrındadır. Əsərin quruluşuna nəzər saldıqda görürük ki, Füzuli məsnəvisində birinci məktubu yazan Məcnun olmuşdursa, "Hüsn və Eşq" əsərində birinci məktubu Hüsn yazır və Süxən vasitəsi ilə Eşqə göndərir.

Tədqiqat işində əldə etdiyimiz nəticələri dissertasiyanın **"Nəticə"** hissəsində aşağıdakı kimi ümumiləşdirərək təqdim edirik:

– Tədqiqat işində ilk öncə Məhəmməd Füzuli və Şeyx Qalib

[27] Şeyh Galib. Hüsn ü Aşk / Hazırlayanlar: Orhan Okay, Hüseyin Ayan. – İstanbul: Dergah Yayınları, 3 baskı. – 2005. –464 s

“Divan”ı əhatəli şəkildə nəzərdən keçirilib. Tədqiqatda Şeyx Qalibi formalaşdıran tarixi şəraitin şairin yaradıcılığına və dünyagörüşünə təsiri haqqında ətraflı məlumat təqdim edilir. Şair təlatümlərlə dolu olan bir dönəmdə yaşayıb-yaratmış və onun bu dövr ərzində III Səlimin sarayında yaşaması, sarayda olarkən dövrünün tanınmış şəxsləri ilə görüşməsi, müxtəlif mövləvixanalarda çalışması və mövləvilik təriqətinin nümayəndələrinə olan münasibəti haqqında ətraflı söz açılmış və tarixi şəraitin şairin formalaşmasında böyük rol oynaması kimi nəticələr əldə edilmişdir.

– Hər iki şairin yaratdığı şeir nümunələri arasında oxşarlıqlar və uzlaşmaların olması, onların nümunələrlə isbatlanması tədqiqat işində əldə edilən əsas amillərdən biri kimi dəyərləndirilə bilər. Dövrünün tarixi gerçəkliyini “Divan”ında lirik boyalarla vəsf edən şair hər zaman ona yaxın olan şəxsləri məhəbbətlə anmış və onlara olan münasibətini əks etdirmişdir. Bu nəticələr əsasında Nizami Gəncəvi, Şəms Təbrizi, Fəridəddin Əttar, Əlişir Nəvai, Məhəmməd Füzuli, Saib Təbrizi, Süruri, İbrahim Gülşəni kimi şairlərin yaradıcılığının Şeyx Qalib yaradıcılığına təsiri və şairin onlara həsr etdiyi şeirlər təhlil olunub müqayisələr aparılmışdır.

– Bu eyni zamanda şairin “Divan”ının türk şeir kontekstində öyrənilməsinə, şeir şəkillərinin arasındakı təsirlənməni müəyyənləşdirməyə, bu şeirlər üzərində mühakimələr yürütməyə əsas verir. Odur ki, Şeyx Qalibin türk şairlərindən Mövlana Cəlaləddin Rumi, Əsrar Dədə, Mehmed Xəyali, Mustafa Çələbi Naili, Yusif Şeyxi, Xoca Süleyman Nəşəti və s. kimi şairlərin adlarını məhəbbətlə çəkməsi, onlardan təsirlənməsi qənaətinə gəlinib.

– Şairin “Divan”ının mövzu qaynaqlarının əsasını təşkil edən amillərin, həmçinin yaradıcılığının tədqiq edilməsi zamanı Məhəmməd Füzuli poeziyasından təsirlənməsinin faktlarla təsdiqlənməsi tədqiqatın əsas nəticələrindən biri kimi dəyərləndirilib.

– Hər iki şairin yaradıcılığının əsasını təşkil edən mövzular və onların müqayisəli şəkildə təhlil olunması, bu təhlil əsasında hər iki sənətkarın yaradıcılığının eyni mənbədən bəhrələnməsi kimi nəticələr əldə edilib.

– Divan poetika ənənəsinə uyğun olaraq hər iki şairin yaradıcılığında “Quran” ayələri, hədislər, peyğəmbərlərlə bağlı qissələr və

s. kimi mövzuların olması, bu mövzulardan istifadədə dövrün ictimai-siyasi durumuna münasibətin əksi qarşıda duran əsas amillərdən biri kimi ortaya qoyulub. Bu baxımdan hər iki şairin yaradıcılığında qəsidə janrının özünəməxsusluqları ətraflı təhlilə cəlb edilib.

– Hər iki şairin yaradıcılığında əsas mövzu olan məhəbbət mövzusunun aparıcı yerdə dayanması, Qalib lirikasının Füzulidən təsirlənməsi əyani nümunələrlə tədqiqata cəlb olunub. Məhəmməd Füzulinin qəzəllərində olduğu kimi Şeyx Qalib poeziyasında da beytin zahiri mənasını geridə qoyacaq dərəcədə dərin təsəvvüfi məna kəsb etdiyi müqayisə olunub .

– Tədqiqata cəlb olunan “Hüsn və Eşq” məsnəvisinin mövzusunun “Leyli və Məcnun” məsnəvisi ilə eyni mənbədən götürülməsi, məsnəvilərin eyni ideya qaynağından bəhrələnməsi tədqiqatın əsas nəticələrindən biri kimi ortaya çıxarılıb.

Şeyx Qalibin poetik görüşlərində də Məhəmməd Füzulinin ədəbi təsiri özünü qabarıq şəkildə büruzə verir.

– Füzuli kimi Şeyx Qalib də sözü müqəddəs nemət hesab etmiş, onun şairlərə Allah tərəfindən göndərilən ilahi nemət olması fikri əsas götürülmüşdür. Füzulinin poeziyada elmiliyin olmasına, formaya deyil, məzmuna üstünlük verməsi Şeyx Qalib poeziyasına təsir edərək sadəcə gül-bülbül eşqini tərənnüm etmək yox, şeirdə elmilik və mənalı söz söyləmək qənaətinə gəldiyini görürük.

– Qəzəllərində çoxmənalılığın olması və bəzi beytlərin daxili məzmunu ilə yanaşı, fəlsəfi məna kəsb etməsi ideyası hər iki sənətkarın yaradıcılığını bir-birinə yaxınlaşdıran cəhətlərdəndir.

– “Hüsn və Eşq” məsnəvisində olan daxilən saflaşma, mənən kamilləşmə, həqiqəti-mütləq gözəlliyi dərk etmə insanın keçdiyi daxili təkamül prosesinin ən son zirvəsini təşkil edir. Həqiqət axtarışları ideyasının “insanın axtardığı həqiqət öz içindədir” fikri ilə səsləşməsi əsərdə əldə edilən son qənaətdir.

– “Hüsn və Eşq”də Füzulinin “Leyli və Məcnun”unun həm mövzu, kompozisiya, obraz və motiv cəhətdən, həm də ideya baxımından təsiri vardır. Məsnəviləri qarşılaşdırdığımız zaman əldə etdiyimiz əsas nəticə ondan ibarətdir ki, Şeyx Qalib “Leyli və Məcnun” dan ilhamlanaraq məhəbbət mövzusunda təkrarçılığa yol verməyərək orijinal əsər yazmağa çalışmış və buna da nail olmuşdur.

– Bu iki böyük sənətkarın yaradıcılıq üslublarını bir-birinə yaxınlaşdıran amillərdən biri Füzulinin əsərlərinin geniş yayılması, şeirlərinin geniş oxucu kütəsinə tanış olması və sənətinin bütün Şərqdə etalona çevrilməsi olmuşdur. Odur ki, türk təsəvvüf ədəbiyyatının son nümayəndəsi olan Şeyx Qalib yaradıcılığında Füzuli ənənələrinə sadiq qalaraq onun davamçısı kimi poeziya aləmində tanınmaqdadır. Bütün bunlar onu göstərir ki, ölməz Füzuli sözünün sehri hələ öz dövründən çox-çox sonra bütün türk dünyasına yayılmış və özünün davamçılarını yetişdirmişdir. Onlardan biri də XVIII əsr türk şairi Şeyx Qalib olmuşdur.

**Tədqiqatın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**


1. Abdullayeva, G.S. Şeyx Qalib poeziyası Quran rəvayətləri kontekstində //–Bakı: Filologiya məsələləri. –2018. № 18, –s. 310-316.
2. Abdullayeva, G. S. Şeyx Qalib şeirində məna axtarışları // – Bakı: BDU, - Dil və ədəbiyyat, - 2018. № 1(109) –223-225 s.
3. Abdullayeva, G.S. Şeyx Qalib: söz bir gövhəri-ülvi, lahut məkanıdır // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVIII Beynəlxalq elmi proktiki konfransın materialları, –Bakı: –2019, –s. 139-144.
4. Abdullayeva, G.S. Şeyx Qalib yaradıcılığında qəsidə // –Bakı: Filologiya və sənətşünaslıq, –2020. №2, –s. 99-104.
5. Abdullayeva, G.S. Şeyx Qalib divanında türk şairlərinin vəsfi. AMEA akad.Z. M.Bünyadov adına Şərqşünaslıq İnstitutu "XXI əsrdə Yunus Emreni anlamaq" mövzusunda simpozium. –Bakı: –2021. –s. 71-73.
6. Abdullayeva, G.S. Məhəmməd Füzuli və Şeyx Qalib qəzəllərinin məzmun yaxınlığı // – Bakı: Filologiya və sənətşünaslıq, –2022. №1, –s. 94-98.
7. Abdullayeva, G.S. Şeyx Qalib yaradıcılığında ənənədən bəhrələnmə // –Bakı: Filologiya məsələləri, –2021. №7, –s. 305-311.
8. Abdullayeva, G.S. Şeyx Qalib Füzuli ənənələri kontekstində // Uluslararası Türk dünyasında milli mücadilə və ədəbiyyat simpoziumu bildiriləri, – Bakı: –2019. –Ankara: –2022. –s. 39-44.
9. Абдуллаева, Г. С. Традиция салафи (преемственности) в творчестве Шейха Галиба Национальные литературы в контексте культурной интеграции сборник статей Международного круглого стола. –Казань: –2021. –s.7-13.
10. Abdullayeva, G.S. Şeyx Qalib divanında Məhəmməd Füzuli şeirinə yazılan təxmislər // –Bakı: Dil və ədəbiyyat Beynəlxalq

elmi-nəzəri jurnal, –2021. 2(116), –s. 117-121.
11. Abdullayeva, G.S. Nizami Gəncəvi Şeyx Qalib yaradıcılığında //Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsi Nizami Gəncəvi 880, Nizamişünaslıq elmi əsərlər,– Gəncə: –2021. № 6, –s.77-82.
12. Абдуллаева, Г.С. Сравнение поэмы Шейха Галиба «Хусн и Эшг» по линиям, пересекающимся с «лейли и меджнун» Актуальні питання гуманітарних наук // Міжвузівський збірник наукових праць молодих вчених. Дрогобицького державного педагог ічного університету імені Івана Франка. Вип 45, том 1 Видавничий дім "Гельветика", –2021. – s.94-100.
13. Abdullayeva, G.S. Şeyx Qalib dühası və onun tədqiq tarixindən // Azərbaycan Elm Mərkəzi, –Bakı: Qədim diyar jurnalı, –2022. –c.4. A Sayı 7, –s.25-32.
14. Abdullayeva, G.S. Şeyx Qalib poeziyası İslam dini müstəvisində İslam Mədəniyyətində birgəyaşayış təcrübəsi // Beynəlxalq simpoziumun materialları, – Bakı: – 2022. –s. 233-235.

Dissertasiya işinin müdafiəsi ___ ___________ 2023-ci il tarixində saat ___ -da AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143, Bakı ş., H.Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı.

Dissertasiya ilə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ _____________ 2023-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.10.2023

Kağızın formatı: A5

Həcm: 39947

Tiraj: 100